XİN nümayəndəsi: Azərbaycan COP29 sədrliyi çərçivəsində iqlim şəffaflığına xüsusi önəm verir

"Bu il Paris Sazişinin icrasında mühüm bir mərhələni qeyd edirik. Birinci İkiillik Şəffaflıq Hesabatlarının (BTR) təqdim olunması sadəcə prosedur öhdəliyi deyil – bu, ölçülə bilən, hesabatlı və yoxlanıla bilən iqlim fəaliyyətinə dair ortaq məsuliyyətimizin kollektiv təsdiqidir. Bu səylər qlobal iqlim rejimində qarşılıqlı etimadın formalaşması üçün vacibdir".

AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycanın COP29 sədrliyinin nümayəndəsi, Xarici İşlər Nazirliyinin Təhlil və Strateji Araşdırmalar İdarəsinin rəisi v.i.e. Şahin Şahyarov Bonn İqlim Sammitində "Gücləndirilmiş Şəffaflıq Çərçivəsi üzrə Dialoq" mövzusundakı panel sessiyada çıxışı zamanı deyib.

Onun sözlərinə görə, Azərbaycan COP29 sədrliyi çərçivəsində iqlim şəffaflığına xüsusi önəm verir.

"Sədrliyimiz çərçivəsində Bakı Qlobal İqlim Şəffaflığı Platforması (BTR) adlı təşəbbüs irəli sürülmüşdür ki, bu platforma tərəflərə – xüsusilə də inkişaf etməkdə olan ölkələrə – BTR-lərin hazırlanması və yekunlaşdırılması prosesində, eləcə də davamlı şəffaflıq səyləri üçün institusional potensialın gücləndirilməsində dəstək göstərməkdə davam edir.

Keçən dövr ərzində BTP çərçivəsində tərəfdaş ölkələr və təşkilatlarla birlikdə Azərbaycan, Toqo, Keniya və Qazaxıstan və digər ölkələrdə bir neçə seminar təşkil olunmuşdur. Bundan əlavə, BMT Baş Assambleyası çərçivəsində Nyu-Yorkda Qlobal İqlim Şəffaflığı Forumu və COP29 zamanı İqlim Şəffaflığı ilə bağlı Nazirlər Səviyyəsində iclas təşkil edilmişdir. Görüşlərdə iqlim şəffaflığı ilə bağlı əldə olunan nəticələr və Azərbaycanın bu istiqamətdə verdiyi töhfə təqdir olunmuş, iqlim hesabatlılığının əhəmiyyəti bir daha vurğulanmışdır.

Hazırkı tarixə qədər 100-dən çox ölkə BTR-lərini təqdim edib ki, bu da qlobal səviyyədə artan siyasi iradə və öhdəliyin bariz göstəricisidir.

Azərbaycan üçün bu, yalnız liderlik məsələsi deyil, həm də həmrəylik və praktiki dəstəyin ifadəsidir. Biz iqlim şəffaflığını həm milli, həm də qlobal səviyyədə ambisiyanın artırılması, hesabatlılığın təmin olunması və daha düzgün iqlim siyasətləri və tədbirlərinin formalaşdırılması üçün mühüm alət hesab edirik. BTP-nin əməkdaşlıq, texniki təcrübə mübadiləsi və potensialın artırılması sahəsində faydalı platforma olması kontekstində Azərbaycan inkişaf etməkdə olan ölkələrin hesabatlılıq sistemlərinin və şəffaflıq çərçivələrinin gücləndirilməsində dəstəyini davam etdirəcəkdir", - deyə Şahin Şahyarov əlavə edib.

AZƏRTAC
2025, 18 iyun